**2000-ci il iyunun 30-da Vaşinqton şəhərində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında imzalanmış Azərbaycan ilə Birləşmiş Ştatlar arasında müdafiə və hərbi sahələrdə əməkdaşlıq barədə Birgə Bəyanat haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2000-ci il iyunun 30-da Vaşinqton şəhərində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında imzalanmış Azərbaycan ilə Birləşmiş Ştatlar arasında müdafiə və hərbi sahələrdə əməkdaşlıq barədə Birgə Bəyanat təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 noyabr 2000-ci il
570

**Azərbaycan ilə Birləşmiş Ştatlar arasında Müdafiə və Hərbi Sahələrdə Əməkdaşlıq barədə**

**B İ R G Ə B Ə Y A N A T**

Azərbaycan Prezidenti Heydər Əliyev və ABŞ müdafiə naziri Uilyam S.Kohen tərəfindən 1997-ci il iyulun 31- də Vaşinqtonda, Kolumbiya dairəsində Birləşmiş Ştatlar ilə Azərbaycan arasında müdafiə və hərbi sahələrdəki gələcək münasibətlər barədə imzalanmış Birgə Bəyanata əsaslanaraq, müdafiə naziri Uilyam S. Kohen və müdafiə naziri Səfər Əbiyev 2000-ci il iyunun 30-da Pentaqonda qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən Cənubi Qafqazda təhlükəsizlik və Azərbaycan ilə Birləşmiş Ştatlar arasında müdafiə sahəsində sıx əməkdaşlığın inkişaf etdirilməsi haqqında danışıqlar aparmışlar.

Müdafiə naziri Kohen NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramında və Corc S. Marşall adına Avropadakı Təhlükəsizlik Tədqiqatları Mərkəzindəki kurslarda Azərbaycanın fəal iştirakını yüksək qiymətləndirdi.

Nazir U. Kohen və nazir S. Əbiyev kütləvi qırğın silahlarının yayılmaması və müdafiə məsələlərinə dair qarşılıqlı əməkdaşlığı yüksək qiymətləndirdilər və digər sahələrdə, xüsusən gələcək enerji daşıyıcılar infrastrukturunun təhlükəsizliyi sahəsində əməkdaşlığın genişləndirilməsinin mümkünlüyünü müzakirə etdilər.

İki nazir qeyd etdi ki, Azadlığın Dəstəklənməsi Aktının 907-ci maddəsi Birləşmiş Ştatlar və Azərbaycan arasında müdafiə və hərbi sahələrdə potensial əməkdaşlığı hələ də məhdudlaşdırır. İki nazir razılaşdı ki, müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi vacibdir.

Hər iki nazir öz ölkələrində mövcud olan qanun və əsasnamələrə müvafiq aşağıdakıları planlaşdırırlar:

1. Azərbaycan Silahlı Qüvvələrinin demokratik və azad cəmiyyətdə inkişafına təkan verəcək müdafiə əməkdaşlıq proqramlarını inkişaf etdirmək . Həmin proqramlar müvafiq hərbi təlim və təhsil, müdafiə planlaşdırılması, ehtiyatların paylanması və büdcələrin tərtibatını əhatə edə bilər.
2. Qarşılıqlı şəkildə razılaşdırılmış yeni fəaliyyət növlərinin və yeni əməkdaşlıq sahələrinin öyrənilməsi və inkişaf etdirilməsi məqsədi ilə müdafiə sahəsində əməkdaşlıq üzrə davamlı dialoq yaratmaq.
3. İkitərəfli səfərlərin mübadiləsi vasitəsi ilə hərbi və müdafiə sahələrində yüksək səviyyəli təmasları təmin etmək.
4. Kütləvi qırğın silahlarının yayılması məqsədi ilə sərhədlərə nəzarət sahəsində əməkdaşlığı gücləndirmək.
5. Avro - Atlantik Tərəfdaşlıq Şurası ( AATŞ) , Sülh Naminə Tərəfdaşlıq (SNT) , o cümlədən Planlaşdırılma və Analiz Prosesi (PAP) , SNT Müdafiə Akademiyaları Konsorsiumu və SNT - Proqramının modelləşdirmə sistemi çərçivəsində qarşılıqlı hərbi əlaqələri möhkəmləndirmək .
6. Azərbaycanın sülhməramlı fəaliyyət sahəsində qabiliyyətini artırılması üçün imkanları tədqiq etmək.

| **Azərbaycan Respublikasının müdafiə naziri** | **Amerika Birləşmiş Ştatlarının müdafiə naziri** |
|---|---|
| *(imza)* | *(imza)* |

Vaşinqton, Kolumbiya dairəsi
30 iyun 2000-ci ildə icra edilmişdir.

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.- S.4652-4654.